UOT 316.3

**Afaq RÜSTƏMOVA**
*fəlsəfə ü.e.d., şöbə müdiri,*
*AMEA Fəlsəfə İnstitutu*

# MİLLİ ŞÜUR VƏ MİLLİ MENTALİTET: QARŞILIQLI TƏSİR MƏSƏLƏLƏRİ *

Şüur olduqca mürəkkəb və bir çox məqamlarda anlaşılması çətinlik yaradan kateqoriyadır, çünki insanla, onun dünyanı qavraması, dərk etməsi, onda mövcud olması ilə bağlıdır. Məlumdur ki, problemin tədqiqatçılar tərəfindən kifayət qədər təhlil edilməsinə baxmayaraq bu yalnız məsələnin cüzi bir hissəsini əhatə edir. Antik filosoflara görə şüur insan və dünya arasında ümumi əlaqədir və burada, əsasən, obyektə istiqamətlənmə nəzərə alınırdı. Təbii ki, bu kontekst şüurun yalnız bir funksiyasını nəzərdə tuturdu, insanın öz daxili aləminə münasibəti diqqətdən kənarda qalırdı. Bu da təbiidir, çünki bu qənaəti Antik dövrün dünyagörüşü və dünyanı qavraması tərzi yaradırdı. Yunanlar hesab edirdilər ki, əşya onu görəndən əvvəl də və o dərk edildikdən sonra da mövcud olmaqda davam edir, lakin şüurun əsas xüsusiyyətlərindən biri olan insanın daxili, mənəvi aləmi ilə bağlılığı məsələsi qeyd edilən yanaşmada əksini tapmırdı. Bizim dünyanı bu və ya digər şəkildə qavramamız şüurumuzda mövcud olan mühakimə və ehtimallara rəğmən həyata keçir. Təbii ki, keçmiş dövrlərdə insanlar dünyanı tamamilə başqa cür görürdülər. Çünki zaman geridönməzdir, bu mənada şüurun indi qavradığı hər bir şey elə həmin an üçün artıq keçmişə dönür.

Şüur problemi hər dövrdə fəlsəfi fikrin mühüm problemlərindən olmuşdur. Bu gün isə bu mövzu ən müxtəlif elm sahələrinin diqqət mərkəzindədir. Qeyd etmək lazımdır ki, müasir fəlsəfədə süur probleminə öz əsərlərində analitik ənənənin nümayəndələri daha çöx diqqət yetirirlər. Onlardan Dj.Sörlü, S.Pristi və b. qeyd etmək olar. Sörlün fikrincə, şüur insan beyninin bioloji xüsusiyyətidir. S.Prist isə daha irəli gedərək qeyd edir ki, "şüur-beyindir".

XX əsrin sonunda "şüur fəlsəfəsi" mövzusunun aktuallığı ön plana keçdi və belə bir təsəvvür yarandı ki, artıq metafizikanın əbədi mövzuları olan biliyin təbiəti və şüur, insanın subyektiv mahiyyəti və s. məsələlər özünün elmi həllini tapacaq. XXI əsrin əvvəlində şüur fəlsəfəsi ilə məşğul olan analitiklər artıq məsələlərə fərqli rakursdan yanaşırdılar. Belə ki, onlar incə (bəzi hallarda, ümumiyyətlə, mövcud olmayan) mətləblərdən deyil, şüur və insan təbiətinin real problemlərinə müraciət edirlər. Qeyd etmək lazımdır ki, empirik nəzəriyyələrdə şüura əsas iki yanaşma müşahidə olunur: bioloji və funksional. Bioloji yanaşma təcrübənin və beynin empirik korrelyasiyasına əsaslanır. Bu yanaşmaya görə, şüur bu prosesi reallaşdıran nəsnədir. Funksional yanaşma müxtəlif səpkili emosiya və davranışlar, bioloji yanaşma isə müxtəlif emosiyalarla beynin müəyyən hissələri arasında empirik əlaqələr axtarır. Funksional yanaşmanın əsas ideyası onunla xarakterizə olunur ki, burada mental vəziyyətlərin növləri fiziki, hər hansı maddi və ya ideal vəziyyətlər kimi deyil, funksional vəziyyətlər kimi nəzərdən keçirilir (2). Ümumiləşdirmə əsasında belə bir qənaət yaranır ki, funksional yanaşmaya görə şüur fəaliyyətdir, bioloji yanaşmaya görə isə şüur bu fəaliyyətin icraçısıdır.

Mentalitet mövzusuna gəldikdə isə o ən qədim zamanlardan filosofların diqqət mərkəzində olmuşdur. Hələ Antik dövrdə "ruh" termini mentalilet haqqında fikirlər yürütmək üçün işlədilmişdir. Bu anlayışla insanın daxili aləmi ilə əlaqədar təsəvvürlər ifadə olunurdu. Qədim yunan fəlsəfəsində idrak mövzusu mərkəzi mövqeyə malik idi. Ağıl, ruh və vücud iyerarxik münasibətdə nəzərdən keçirilirdi. Vücudun fəaliyyətini təmin edən vasitənin ruh, bu fəaliyyəti

---

* Məqalə fəlsəfə ü.e.d. Tahirə Allahyarova tərəfindən çapa məsləhət görülüb.

həyata keçirən qüvvənin isə ağıl olduğu iddia edilirdi. Aristotelə görə insanlarda təcrübə yaddaş nəticəsində yaranır, əşya, hadisə haqqında üst-üstə düşən təəssüratlar təcrübənin mahiyyətini əhatə edir (1, s.50). Yəni yaddaşa həkk olunanların sayəsində təfəkkür ilkin əlaqələri bərpa edə bilir. Sonra ağıl bu əlaqəni aydınlaşdırır. Xalqların dünya haqqında təsəvvürlərində mövcud olan fərqlilik də məhz onlarda hadisələrə aid təcrübənin müxtəlifliyindən irəli gəlir. Lakin Antik dövrün filosoflarının böyük əksəriyyəti bu fikirlə razı deyildilər və bunu nəzəri, intellektual fəaliyyətə aid etmirdilər, çünki bu sahələr təcrübədən daha mühüm əhəmiyyət kəsb edir. Görünür, elə bu səbəbdəndir ki, elmi biliklərin bu və ya digər mentallığın yaratdığı subyektivlikdən asılılığı yoxdur. Bununla belə, dərketmə prosesi yalnız təfəkkür fəaliyyəti deyil, o insanın daxili aləmi ilə bağlı olduğundan, eyni zamanda əxlaqi fəaliyyətdir.

Orta əsrlərdə mentalitet anlayışını nəzərdən keçirən xüsusi yanaşmalar formalaşmamışdı. İntibah dövrü üçün xristianlığa əsaslanan dünya mənzərəsinin təbii-elmi tendensiyalarının ifadəsi xas idi. Bu dövrdə “dərrakə”, “ağıl” kimi anlayışlar istifadə edilməyə başlanmışdı. Yeni dövrdə və Maarifçilik dövründə mentalitet problemi artıq başlıca olaraq fəlsəfi kontekstdə təhlil edilirdi. Təhlil obyekti kimi isə “ruh”, “xalqın ruhu”, “milli xarakter” kateqoriyaları götürülürdü. Bu yanaşma H.Hegelin, İ.Herderin, İ.Kantın, Ş.Monteskyenin, İ.Fixtenin və b. əsərlərində izlənilir. Qeyd edilən mütəfəkkirlərin əsərlərində ilk dəfə sosial həyatın, mədəniyyətin, təbii iqlim şəraitinin və siyasi amillərin milli xarakterin formalaşmasına göstərdiyi təsirlərin mahiyyətini ifadə edən fikirlər yer almışdır.

Mentalitet fenomeninin fəlsəfi təhlili və onun elmi idrakda rolu məsələləri fəlsəfənin qeyri-klassik inkişaf mərhələsində meydana çıxmışdır. Lakin hələ XX əsrə qədər artıq bu problemin dərkini zəruriləşdirən kifayət qədər material mövcud idi. Bu baxımdan mövzu ilə bağlı təhlilləri həyata keçirmək üçün “şüur”, “idrak”, “ruh” və s. kimi fəlsəfi anlayışların mənalarının dərinliyinə varmaq lazım gəldi. Bunu onunla əsaslandırmaq olar ki, ümumiyyətlə mentalitet insan şüurundan kənarda mövcud ola bilməz.

Fəlsəfədə mentalitet fenomeninin təhlilinə aid vahid metodologiya izlənilmir. Problemin araşdırılmasında daha çox tarixi və ya sosioloji metodlara müraciət olunur. Təbii ki, bu metodlar qeyd edilən hadisənin mahiyyətinin tam açılmasında, onun fəlsəfi təhlilinin həyata keçirilməsində yetərli ola bilməz. Mühüm olan cəhət isə mövcud situasiyanın paradoksal məqam yaratmasıdır. Belə ki, bir tərəfdən mentalitet fenomeninin elmi dərkində qeyri-müəyyənliklər mövcuddur, digər tərəfdən isə problemin nəzəri və təcrübi mahiyyəti bu məsələnin ətraflı təhlilini qaçılmaz edir. XX əsrin 30-cu illərində “Annallar məktəbi”nin (Fransa) nümayəndələri olan M.Blok və L.Fevr mentalitet nəzəriyyəsinin işlənməsinə təşəbbüs göstərdilər. Əsas tədqiqat istiqaməti kimi insanların şüurunda sabit bünövrə funksiyası daşıyan mədəniyyət, dil, din, tərbiyə, ünsiyyət və s. substansiyalar götürüldü. Sonralar mentalitet problemi ABŞ-ın, Böyük Britaniyanın, İtaliyanın, Almaniyanın, Polşanın və s. müxtəlif məktəb və cərəyanlarının nümayəndələri tərəfindən araşdırıldı. Polşa və Almaniya alimləri mentaliteti sosial hadisə kimi nəzərdən keçirirdilər. XX əsrin 90-cı illərindən mentalitet fenomeni əsasən üç istiqamətdə təhlil edilirdi: psixoloji, sosial-siyasi və kulturoloji. Termin olaraq mentalitet E.Dürkgeym tərəfindən elmi dövriyyəyə daxil edilmişdir. Dürkgeym mentalitet nəzəriyyəsinin ideya mənbələrindən biri kimi kollektiv şüuru təqdim edir. Onun fikrincə, mentalitet kollektiv davranışın fundamental əsasını, müxtəlif situasiyalara emosional reaksiyanı əhatə edir. Bir çox alimlər də mentalitetin kollektiv xarakter daşıması ideyasını irəli sürürlər. Bu nöqteyi-nəzərdən mentalitet yalnız etnik birlik çərçivəsində mövcud ola bilər. Belə bir fikir də mövcuddur ki, emosional reaksiyalar, təfəkkür stereotipləri, davranış qaydaları eyni peşənin sahibləri arasında da mövcuddur. Lakin sözsüz ki, etnik mentallıq daha sabit mahiyyətə malikdir, çünki o bir çox nəsillərin təcrübəsi əsasında formalaşaraq əsrlərdən-əsrlərə ötürülüb. Başqa sözlə, mentallıq sosial informasiyanın daha sabit formasıdır, çünki o daha az dəyişilkliyə məruz qalır və daha çox etnik determinantlarla

şərtlənir. Mentalitetin əhəmiyyətli bir hissəsini şüuraltı təsəvvürlər təşkil edir. Yəni mentallıq ictimai şüurun elə bir formasıdır ki, burada düşüncə emosiyalardan, latent vərdişlərdən ayrılmır. Bütövlükdə isə, qeyd edildiyi kimi, mentalitet anlayışını əhatəli şəkildə ifadə etmək mümkün deyil, hərçənd ki, bu fenomenə dair saysız-hesabsız münasibətlər mövcuddur. İngilisdilli lüğətlərdə mentalitet anlayışı "fərdi və ya toplumu xarakterizə edən ağılın keyfiyyəti", "əhval-ruhiyyə, ağlın məzmunu", "fikir tərzi, düşüncənin istiqaməti, xarakteri" və s. kimi ifadələrlə izah olunur. Bu ifadələr fikirləri əsasən "ağıl tərzi", "təfəkkür", "düşüncə", "dərrakə" və s. anlayışları ətrafında birləşdirir. Təklif olunan konstantalar rasional mahiyyət daşıyır. Lakin məlumdur ki, mentallığı, bütövlükdə, rasional sfera ilə əlaqələndirmək o qədər də məqsədə uyğun deyil. Mentalitet nəsillərin sosial və mənəvi təcrübəsinin sayəsində formalaşmış təsəvvürlərin sabit kompleksidir. Bu təsəvvürlər bir çox hallarda ictimai və fərdi şüuru, davranışları şərtləndirir, həmçinin mentallıq özündə tipik invariant srtukturları qoruyub saxlayan fərdi şüurun universal xüsusiyyətidir. O şüuraltı sferaya, insan təfəkkürünün dərin səviyyələrinə sirayət edir, fərdin və sosial qrupun mənəvi həyat tərzinin elementi olaraq özündə təfəkkür tərzlərini, dünyagörüşü və qavrayış imkanlarını, ümumi əhval-ruhiyyəni ehtiva edir. Görünür məhz bu cəhət stereotipləri, həyat tərzlərini müəyyənləşdirir. Başqa sözlə, mentalitetin təbiətində mənəvi-psixoloji və sosial komponentlər öz əksini tapır. Bu yanaşmaya əsaslanaraq bir sıra tədqiqatçılar mentalitet anlayışının mühüm aspektlərini müəyyənləşdirməyə cəhd edirlər – mənəvi varlıq, fərdi və ictimai şüur, ənənələr, maddi və mənəvi mədəniyyət, identiklik, arxetip.

Mentalitet cəmiyyətlə qarşılıqlı təsir imkanlarına malik olduğundan mühim sosial amil kimi xalqın yaşamını və dövlətin bütün sahələrini əhatə edir, tənzimləyici xüsusiyyəti isə cəmiyyətdə sabitliyin qorunub saxlanmasına şərait yaradır. Burada, təbii ki, aparıcı rolu mentalitetin mahiyyətini şərtləndirən, onun inkişafına təsir göstərən sosium oynayır. Bu səbəbdən mentalitet cəmiyyətin mənəvi, iqtisadi, mədəni, siyasi inkişaf səviyyəsinə uyğunluq təşkil edir və onunla bərabər dəyişir.

Azərbaycan cəmiyyətinin mentalitetini müəyyənləşdirən müasir gerçəklik mənbəyi Qərb dünyasından götürülmüş, sosiumu müəyyən institusional formalara istiqamətləndirən modernləşmə, innovasiya prosesləridir. Bunlar vətəndaş cəmiyyəti, dövlətçiliyin demokratikləşmə tipi, bazar iqtisadiyyatı və s.-ni nəzərdə tutur. Əsas cəhət isə, bu proseslərin xalqın milli qürur hissinə xələl gətirmədən səmərəli şəkildə milli şüur, milli mentalitet amillərinə istinad edilərək cəmiyyət həyatının yeniləşməsini təmin edə bilməsidir. Azərbaycan yüksək mədəniyyəti, mənəvi dəyərləri ilə seçilən bir ölkədir. Burada özünəməxsusluqla dünyəvilik çox üzvi şəkildə birləşərək Azərbaycan cəmiyyətinin ictimai şüurunun məzmununu əks etdirir. Cəmiyyətin müasir inkişaf səviyyəsi ictimai tərəqqi yollarının təhlilində yeni yanaşma və biliklərin müəyyənləşdirilməsini, sosial həyatda baş verən dəyişikliklərin səbəblərinin dərindən, hərtərəfli öyrənilməsini aktuallaşdırır. Problemin hərtərəfli təhlili bir sıra həyat əhəmiyyətli sualların cavablandırılmasına şərait yarada bilir. Yəni söhbət cəmiyyətimizdə sosial sferanın bütün sahələrində stabil inkişaf istiqamətlərini təmin edə biləcək əsaslardan gedir. Problemin aktuallığı müasir dövrün gerçəkliyini özündə əks etdirən tipik xüsusiyyətlərin ziddiyyətli xarakteri ilə şərtlənir. Bu kontekst, ilk növbədə, yeni nəsillərin yaşamının sosiallaşdırılmasında dövrə uyğun mentalitetin mövcud olduğu şəraitdə meydana çıxan uyğunsuzluqları nəzərdə tutur.

Bu gün milli ideyamızın qayəsini "azərbaycançılıq" konsepsiyası təşkil edir. Bu ideya Azərbaycan xalqının milli xarakteri və mentalitetinin təsiri altında formalaşıb və yeni tarixi zaman kəsiyində dövrün mürəkkəb xarakterli problemlərinin həllini həyata keçirmək üçün sosiumu birləşdirməyə qadir olan sosial qətiyyət qüvvəsini özündə ehtiva edir. Ulu öndər Heydər Əliyev azərbaycançılıq ideologiyasını azərbaycanlıların milli ruhunun qoruyucusu, ümumdünya məkanında milli özünütəsdiqin əsas amili hesab edirdi. O, milli varlığımızın ideya təməli olan azərbaycançılıq, Azərbaycan mentaliteti haqda demişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas

ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə, mentalitetinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adətlərini yaşatmalıyıq”. Hazırda azərbaycançılıq ideologiyasını öz fəaliyyətində cənab İlham Əliyev davam etdirir. Respublikamızın Prezidenti xalqın milli varlığının təməlini təşkil edən milli ənənə, milli xarakter, milli mentalitet zəminində formalaşan azərbaycançılıq məfkurəsi əsasında ölkənin hərtərəfli inkişafına nail olmağa çalışır və bu fəaliyyətin müsbət təzahürləri cəmiyyət həyatının bütün sahələrində özünü göstərir.

**Açar sözlər**: *şüur, mentalitet, ruh, milli xarakter, ictimai şüur, idrak*

**İstifadə olunmuş ədəbiyyat**

1. Гостев А. В. Проблема человеческого мышления в трактате Аристотеля «О душе» // Знание и традиция в истории мировой философии : сб. ст. - М., 2001.
2. http://iph.ras.ru/uplfile/root/biblio/ps/ps12/8.pdf

**Афаг РУСТАМОВА**

**НАЦИОНАЛЬНОЕ СОЗНАНИЕ И НАЦИОНАЛЬНЫЙ МЕНТАЛИТЕТ: ВОПРОСЫ ВЗАИМОВЛИЯНИЯ**

**Резюме**

В статье отмечается, что и сознание, и менталитет очень сложные понятия. Поэтому исследование взаимовлияния этих субстанций имеет важное значение. Это обосновывается тем, что в целом менталитет не может существовать вне человеческого сознания. Известно, что люди живут по образу жизни своего народа. Автор отмечает, что глубокое изучение особенностей каждого народа, их защита и передача новым поколениям является важным вопросом современности, поскольку эти константы охватывают все сферы жизни народа и способствуют поддержанию стабильности в обществе.

**Ключевые слова:** *сознание, менталитет, дух, национальный характер, общественное сознание, разум*

**Afag RUSTAMOVA**

**NATIONAL CONSCIOUSNESS AND NATIONAL MENTALITY: MUTUAL INFLUENCE OF ISSUES**

**Summary**

The article notes that both consciousness and mentality are very complex concepts. Therefore, the study of the mutual influece of these substances is of great importance. It is justified by the fact that in general, the mentality can not exist outside the human consciousness. It is known that people lived according to the way of life of their people. The author notes that a deep knowledge of these features, their protection and transmission to new generations, is an important issue of our time, since these constants cover all areas of people's lives and contribute to the maintenance of stability in society.

**Keywords:** *consciousness, mentality, spirit, national character, social consciousness, cognition*